**"Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair" Sazişin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikası hökuməti və Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair" 2009-cu il iyulun 7-də Strasburq şəhərində imzalanmış saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2010-cu il
№ 1065-IIIQ

**Azərbaycan Respublikası hökuməti ilə Avropa birliyi arasında**
**Hava xidmətlərinin müəyyən aspektlərinə dair**

## SAZİŞ

Bir tərəfdən və Azərbaycan RespublikasI Hökuməti, digər tərəfdən Avropa Birliyi (bundan sonra "Tərəflər" adlandırılır)

Azərbaycan Respublikası ilə Avropa Birliyinin bir neçə Üzv Dövləti arasında Birliyin qanunvericiliyinə zidd müddəaları olan hava əlaqəsi haqqında ikitərəfli sazişlərin bağlandığını qeyd edərək;

Avropa Birliyinin Üzv Dövlətləri və üçüncü ölkələr arasında hava əlaqəsi haqqında ikitərəfli
sazişlərə daxil edilə bilən bır neyə aspektə dair Avropa Birliyinin xüsusi səlahiyyətə malik olduğunu qeyd edərək;

Avropa Birliyinin qanunlarına uyğun olaraq hər hansı bir Üzv Dövlətdə yaradılan Birliyin aviasiya şirkətlərinin Avropa Birliyinin Üzv Dövlətləri və üçüncü ölkələr arasında hava marşrutlarına ayrı-seçkilik olmadan daxil olmaq hüququna malik olduğunu qeyd edərək;

Avropa Birliyi və müəyyən üçüncü ölkələr arasında bağlanan. bu üçüncü ölkələrin vətəndaşlarına Avropa Birliyinin qanunlarına uyğun olaraq lisenziya verilmiş aviasiya şirkətlərinə sahib olmaq imkanı verən sazişləri nəzərə alaraq;

Azərbaycan Respublikası və Avropa Birliyi arasında hava əlaqəsinin yaradılması və belə hava əlaqəsinin davamlılığının saxlanılması üçün möhkəm hüquqi bazanın təşkili məqsədi ilə Azərbaycan Respublikası və Avropa Birliyinin Üzv Dövlətləri arasında bağlanan hava əlaqəsi haqqında ikitərəfli sazişlərdə Birliyin qanunvericiliyinə zidd olan müddəaların Birliyin qanunvericiliyinə tamamilə uyğunlaşdırılmalı olduğunu etiraf edərək;

Azərbaycan Respublikası və Avropa Birliyinin Üzv Dövlətləri arasında bağlanan hava əlaqəsi
haqqında ikitərəfli sazişlərin Birliyin qanunvericiliyinə zidd olmayan müddəalarına dəyişikliyə və əlavəyə ehtiyac olmadığını qeyd edərək;

Bu danışıqların bir hissəsi olaraq, Azərbaycan Respublikası və Avropa Birliyi arasında hava daşımalarının ümumi həcmini artırmaq. Azərbaycan Respublikasının hava daşıyıcıları və Birliyin hava daşıyıcıları arasında balansa təsir etmək və ya nəqliyyat hüquqlarına aid olan mövcud hava əlaqəsi haqqında ikitərəfli sazişlərin müddəalarına dəyişikliklər edilməsi barədə danışıqlar aparmağın Avropa Birliyinin məqsədi olmadığını qeyd edərək;

AŞAĞIDAKILAR BARƏSİNDƏ RAZILIĞA GƏLDİLƏR:

### Maddə 1
### Ümumi müddəalar

1. Bu Sazişin məqsədləri üçün "Üzv Dövlətlər"' ifadəsi Avropa Birliyinin Üzv Dövlətləri mənasını bildirir.

2. 1 nömrəli əlavədə sadalanan hər bir Sazişdə həmin Sazişə tərəf olan Üzv Dövlətin vətəndaşlarına istinadlar Avropa Birliyinin Üzv Dövlətlərinin vətəndaşlarına istinadlar kimi başa düşüləcəkdir.

3. 1 nömrəli əlavədə sadalanan hər bir Sazişdə həmin Sazişə tərəf olan Üzv Dövlətin hava daşıyıcılarına və ya aviasiya şirkətlərinə istinadlar bu Üzv Dövlət tərəfindən təyin olunmuş hava
daşıyıcılarına və ya aviasiya şirkətlərinə istinadlar kimi başa düşüləcəkdir.

Maddə 2
**Üzv Dövlət tərəfindən təyinat**

1. Bu maddənin 2-ci və 3-cü bəndlərinin müddəaları 2 nömrəli əlavənin (a) və (b) bəndlərində qeyd olunan, aidiyyəti Üzv Dövlət tərəfindən hər hansı bir hava daşıyıcısının təyinatına, ona səlahiyyət verilməsinə və Azərbaycan Respublikası tərəfindən icazə verilməsinə, habelə hava daşıyıcısının səlahiyyəti və ya icazəsindən imtina edilməsi, onun ləğv edilməsi, təxirə salınması və ya məhdudlaşdırılmasına dair maddələrin müvafiq müddəalarını münasib olaraq əvəz edəcəkdir.
2. Üzv Dövlət tərəfindən təyinat alınan kimi, Azərbaycan Respublikası prosedur gecikdirilmə minimal olmaqla, müvafiq səlahiyyət və icazələri aşağıdakı şərtlərlə təmin edəcəkdir:

i. hava daşıyıcısı onu təyin edən Üzv Dövlətin ərazisində Avropa Birliyini yaradan Müqaviləyə uyğun olaraq yaradılıb və Avropa Birliyinin qanunvericiliyinə əsasən qüvvədə olan İstismar Lisenziyasına malikdir;

ii. hava daşıyıcısına tənzimedici səmərəli nəzarət Hava İstismarçısı Sertifikatının verilməsinə məsuliyyət daşıyan Üzv Dövlət tərəfindən həyata keçirilir, dəstəklənir və təyinatda müvafiq aviasiya hakimiyyəti orqanları aydın müəyyən edilmişdir və

iii. hava daşıyıcısı Üzv Dövlətlərə və/və ya onların vətəndaşlarına və /və ya 3 nömrəli əlavədə sadalanan digər dövlətlərə və/və ya həmin digər dövlətlərin vətəndaşlarına birbaşa və ya mülkiyyətdə pay çoxluğu ilə məxsusdur və məxsus olmaqda davam edəcəkdir və həmin dövlətlər və/və ya həmin vətəndaşlar tərəfindən həmişə səmərəli şəkildə nəzarət ediləcəkdir.

3. Azərbaycan Respublikası aşağıdakı hallarda Üzv Dövlət tərəfindən təyin edilmiş hava daşıyıcısının səlahiyyətlərindən və ya icazəsindən imtina edə, onu ləğv edə, təxirə sala və ya məhdudlaşdıra bilər:

i. hava daşıyıcısı Avropa Birliyini yaradan Müqaviləyə uyğun olaraq onu təyin edən Üzv Dövlətin ərazisində yaradılmayıb və ya Avropa Birliyinin qanunvericiliyinə əsasən qüvvədə olan İstismar Lisenziyası yoxdur;

ii. hava daşıyıcısına tənzimedici səmərəli nəzarət Hava İstismarçısı Sertifikatının verilməsinə məsuliyyət daşıyan Üzv Dövlət tərəfindən həyata keçirilmir, dəstəklənmir və ya təyinatda müvafiq aviasiya hakimiyyəti orqanları aydın müəyyən edilməmişdir, və ya

iii. hava daşıyıcısı Üzv Dövlətlərə və/və ya onların vətəndaşlarına və/və ya 3 nömrəli əlavədə sadalanan digər dövlətlərə və/və ya həmin digər dövlətlərin vətəndaşlarına birbaşa və ya mülkiyyətdə pay çoxluğu ilə məxsus deyildir və ya səmərəli şəkildə nəzarət edilmir.

Azərbaycan Respublikası bu bəndə əsasən öz hüququnu həyata keçirərkən Birliyin hava daşıyıcılarına milli əsasda ayrı-seçkili münasibət göstərməyəcəkdir.

**Maddə 3**
**Tənzimedici nəzarət üzrə hüquqlar**

1. Bu maddənin 2-ci bəndinin müddəaları 2 nömrəli əlavənin (c) bəndində sadalanan maddələri tamamlayacaqdır.

2. Əgər hər hansı bir Üzv Dövlət digər Üzv Dövlət tərəfindən tənzimedici səmərəli nəzarət olunan və dəstəklənən hava daşıyıcısını təyin edibsə, Azərbaycan Respublikasının hüquqları hava daşıyıcısını təyin edən Azərbaycan Respublikası və Üzv Dövlət arasında bağlanan Sazişin təhlükəsizlik müddəaları əsasında həyata keçiriləcək, həmin digər Üzv Dövlətin təhlükəsizlik standartlarının qəbul edilməsi, yerinə yetirilməsi və ya dəstəklənməsinə və həmin hava daşıyıcısının istismar səlahiyyətlərinə münasibətdə bərabər tətbiq ediləcəkdir.

**Maddə 4**

**Aviasiya yanacağına vergi qoyulması**

1. Bu maddənin 2-ci bəndinin müddəaları 2 nömrəli əlavənin (d) bəndində sadalanan maddələrin müvafiq müddəalarını tamamlayacaqdır.

2. Hər hansı bir digər zidd müddəalara baxmayaraq, 2 nömrəli əlavənin (d) bəndində sadalanan sazişlərin heç bir müddəası Üzv Dövlətə Azərbaycan Respublikasının təyin edilmiş hava daşıyıcısının bu Üzv Dövlətin ərazisindəki hər hansı bir məntəqə ilə bu Dövlətin və ya digər Üzv Dövlətin ərazisindəki digər məntəqə arasında uçuşlar yerinə yetirən hava gəmisi üçün istifadə edilən yanacağa öz ərazisində ayrı-seçkilik yaratmadan vergilər, tutulmalar, rüsumlar, ödənişlər və ya yığımlar tətbiq etməyə mane olmayacaqdır.

3. Hər hansı bir dəgər zidd müddəalara baxmayaraq, 2 nömrəli əlavənin (d) bəndində sadalanan sazişlərin heç bir müddəası Azərbaycan Respublikasına Üzv Dövlətin təyin edilmiş hava daşıyıcısının Azərbaycan Respublikasının ərazisindəki hər hansı bir məntəqə ilə Azərbaycan Respublikasının ərazisindəki digər məntəqə arasında uçuşlar yerinə yetirən hava gəmisi üçün istifadə edilən yanacağa öz ərazisində ayrı-seçkilik yaratmadan vergilər, tutulmalar, rüsumlar. ödənişlər və ya yığımlar tətbiq etməyə mane olmayacaqdır.

**Maddə 5**
**Avropa Birliyi hüdudlarında daşıma tarifləri**

1. Bu maddənin 2-ci bəndinin müddəaları 2 nömrəli əlavənin (e) bəndində sadalanan maddələri tamamlayacaqdır.

2. 2 nömrəli əlavənin (e) bəndində sadalanan müddəaları özündə tamamilə əks etdirən 1 nömrəli əlavədəki Sazişə əsasən Azərbaycan Respublikası tərəfindən təyin olunmuş hava daşıyıcısının (daşıyıcılarının) yalnız Avropa Birliyi hüdudlarında daşımalara görə tətbiq edəcəyi tariflər Avropa Birliyinin qanunvericiliyinə uyğun olmalıdır.

**Maddə 6**
**Sazişə əlavələr**

Bu Sazişə əlavələr onun tərkib hissəsi hesab olunur.

**Maddə 7**
**Yenidən baxılma və ya dəyişiklik**

Tərəflər hər hansı bir vaxt qarşılıqlı razılaşma yolu ilə bu Sazişə yenidən baxa və ya ona dəyişiklik edə bilərlər.

**Maddə 8**
**Qüvvəyə minmə və müvəqqəti tətbiq etmə**

1. Tərəflər bir-birini bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların tamamlanması barədə yazılı şəkildə xəbərdar etdikdən sonra bu Saziş qüvvəyə minəcəkdir.

2. Tərəflər 1-ci bəndin müddəalarına baxmayaraq, bu Sazişin müvəqqəti tətbiq edilməsi üçün zəruri olan dövlətdaxili prosedurların tamamlanması barədə bir-birini xəbərdar etdikdən sonra növbəti ayın birinci günündən Sazişin müvəqqəti tətbiq olunması haqqında razılaşırlar.

3. Azərbaycan Respublikası və Üzv Dövlətlər arasında bağlanan, bu Sazişin imzalandığı tarixdə hələ qüvvəyə minməyən və müvəqqəti tətbiq olunmayan sazişlər və digər razılaşmalar 1 nömrəli əlavənin (b) bəndində göstərilmişdir Bütün belə sazişlər və razılaşmalar qüvvəyə

mindikdən və ya müvəqqəti tətbiq olunduqdan sonra bu. Saziş onlara tətbiq ediləcəkdir.

**Maddə 9**
**Ləğv edilmə**

1. Əgər I nömrəli əlavədə sadalanan saziş ləğv edilərsə, bu Sazişin 1 nömrəli əlavədə göstərilən aidiyyəti Sazişlə əlaqəli bütün müddəaları eyni zamanda ləğv ediləcəkdir.

2. Əgər I nömrəli əlavədə sadalanan bürün sazişlər ləğv edilərsə, bu Saziş də eyni zamanda ləğv ediləcəkdir.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər lazımi şəkildə səlahiyyət alaraq bu Sazişi imzaladılar.

Strasburq şəhərində 7 iyul 2009-cu il tarixində Azərbaycan, alman, bolqar, çex, danimarka, eston, fin, fransız, ingilis, ispan, isveç, italyan, latış, litva, macar, malta, niderland, polşa, portuqal, rumın, slovak, sloven və yunan dillərində iki nüsxədə imzalanmışdır.

**ƏLAVƏ 1**

**Bu Sazişin 1-ci maddəsində istinad edilən sazişlərin**

SİYAHISI

(a) Bu Sazişin imzalandığı tarixdə bağlanan, imzalanan və/və ya müvəqqəti tətbiq edilən, Azərbaycan Respublikası Hökuməti və Avropa Birliyinin Üzv Dövlətləri arasında Hava əlaqəsi haqqında sazişlər

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Avstriya Sazişi" adlandırılan,
Vyana şəhərində 2000-ci il iyul ayının 4-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Avstriya Respublikası Hökuməti arasında Hava daşımaları haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Belçika Sazişi" adlandırılan, Bakı şəhərində 1998-ci il aprel ayının 13-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Belçika Krallığı Hökuməti arasında 1 lava əlaqələri haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən. bundan sonra "Azərbaycan - Bolqarıstan Sazişi" adlandırılan,
Sofiya şəhərində 1995-ci ü iyun ayıran 29-da imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

2 nömrəli əlavədə istinad edilən. bundan sonra "Azərbaycan - Danimarka Sazişi" adlandırılan. Kopenhagen şəhərində 2000-ci il aprel ayının 27-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Danimarka Krallığı Hökuməti arasında Hava daşımaları haqqında Saziş. Sonuncu dəyişikliklər 1 mart 2004-cü il və 17 dekabr 2004-cü il tarixli məktublarla mübadilə yolu ilə daxil edilmişdir.

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Almaniya Sazişi" adlandırılan, Bakı şəhərində 1995-ci il iyul ayının 2-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası I hökuməti arasında Hava daşımaları haqqında Saziş; Sonuncu dəyişikliklər Bakı şəhərində 1995-ci il iyul ayının 28-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası Hökuməti arasında I hava daşımaları haqqında Sazişə dair Bakı şəhərində 1998-ci il iyun ayının 29-da imzalanan Düzəliş və Əlavələr Protokolu ilə daxil edilmişdir.

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Fransa Sazişi" adlandırılan. Paris şəhərində 1997-ci il iyun ayının 19-da imzalanmış Azərbaycan Respublikası

Hökuməti ilə Fransa Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Yunanıstan Sazişi" adlandırılan, Afina şəhərində 1995-ci il iyun ayının 6-da paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında Hava daşımaları haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - İtaliya Sazişi" adlandırılan. Roma şəhərində 1997-ci il sentyabr ayının 25-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Lüksemburq, Sazişi" adlandırılan, Bakı şəhərində 2001-ci i) iyul ayının 3-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Böyük Lüksemburq Hersoqluğu Hökuməti arasında Hava əlaqəsi haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən bundan sonra "Azərbaycan Niderland Sazişi" adlandırılan, Bakı şəhərində 1996-cı il iyul ayının 11 –də imzalanmış Azərbaycan Respublikası və Niderland Krallığı arasında Hava daşımaları haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - Polşa Sazişi" adlandırılan Varşava şəhərində 1997-ci il avqust ayının 26-da imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında Mülki hava daşımaları haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Rumıniya Sazişi" adlandırılan, Bakı şəhərində 1996-cı il mart ayıran 27-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında Hava əlaqəsi haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan Slovakiya Respublikası Sazişi" adlandırılan Bab şəhərində 2000-ci il oktyabr ayının 27-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - İspaniya Sazişi" adlandırılan, Madrid şəhərində 2004-cü il noyabr ayının 18-də paraflanmış Azərbaycan Respublikası və İspaniya Krallığı arasında Hava əlaqəsi haqqında Saziş;

- 2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan - İsveç Sazişi" adlandırılan Kopenhagen şəhərində 2000-ci il aprel ayının 27-də paraflanmış Azərbaycan Respublikası Hökuməti ilə İsveç Krallığı Hökuməti arasında Hava daşımaları haqqında Saziş; Sonuncu dəyişikliklər 1 mart 2004-cü il və 17 dekabr 2004-cü il tarixli məktublarla mübadilə yolu ilə daxil edilmişdir.

2 nömrəli əlavədə istinad edilən, bundan sonra "Azərbaycan – Birləşmiş Krallıq Sazişi" adlandırılan, London şəhərində 1994-cü il fevral ayının 23-də imzalanmış Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Hava əlaqələri

haqqında Saziş.

20 iyun və 23 dekabr 1996-cı il tarixli Notalar mübadiləsi yolu ilə düzəliş edilmişdir.

Sonuncu dəyişikliklər 2000-ci il 3-4 iyul tarixlərdə Bakı şəhərində imzalanan Qarşılıqlı anlaşma

haqqında memorandumla daxil edilmişdir.

b) Bu Sazişin imzalandığı tarixdə qüvvədə olmayan və müvəqqəti tətbiq edilməyən, Azərbaycan Respublikası və Avropa Birliyinin Üzv Dövlətləri arasında paraflanan və ya imzalanan hava daşımaları sazişləri və digər razılaşmalar:

bundan sonra 2 nömrəli əlavədə "Azərbaycan - Çexiya Respublikası Sazişi" adlandırılan, Praqa şəhərində 1998-ci il dekabr ayının 3-də imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Çexiya Respublikası Hökuməti arasında Hava nəqliyyatı haqqında Saziş.

- bundan sonra 2 nömrəli əlavədə "Azərbaycan - Estoniya Sazişi" adlandırılan. Tallin şəhərində 2002-ci il noyabr ayının 8-də paraflanan Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında Hava əlaqəsi Sazişi;

- bundan sonra 2 nömrəli əlavədə "Azərbaycan - Finlandiya Sazişi" adlandırılan, Bakı şəhərində 2002-ci il sentyabr ayının 29-da paraflanan Findlandiya Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Hava əlaqəsi haqqında Saziş.

**ƏLAVƏ II**

**Bu Sazişin I nömrəli əlavəsində sadalanan və 2 - 5-ci maddələrində istinad edilən sazişlərin maddələrinin**

**SİYAHISI**

(a) Üzv Dövlət tərəfindən təyinat:

- Azərbaycan - Avstriya Sazişinin 3-cü Maddəsinin 5-ci bəndi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 3-cü Maddəsinin 5-ci bəndi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Danimarka Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Estoniya Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi:
- Azərbaycan - Almaniya Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Yunanıstan Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Fransa Sazişinin 4-cü Maddəsinin 3-cü bəndi;
- Azərbaycan - İtaliya Sazişinin 4-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Lüksemburq Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Niderland Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Polşa Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Rumıniya Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 4-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - İsveç Sazişinin 3-cü Maddəsinin 4-cü bəndi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 4-cü Maddəsinin 4-cü bəndi.

(b)Səlahiyyət və ya icazələrdən imtina edilməsi, onun ləğvi, təxirə salınması və ya məhdudlaşdırılması:

- Azərbaycan - Avstriya Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Belçika Sazişinin 5-ci Maddəsinin 1 (d) bəndi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 4-cü Maddəsinin 1 (b) bəndi;
- Azərbaycan - Danimarka Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Estoniya Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Yunanıstan Sazişinin 4-cü Maddəsinin 1 (b) bəndi;
- Azərbaycan - Fransa Sazişinin 5-ci Maddəsinin 1-ci bəndi;
- Azərbaycan - Finlandiya Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - İtaliya Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Lüksemburq Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - "Niderland Sazişinin 4-cü Maddəsinin 1 (c) bəndi;
- Azərbaycan - Polşa Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;

- Azərbaycan - Rumıniya Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - İsveç Sazişinin 4-cü Maddəsinin 1 (a) bəndi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 5-ci Maddəsinin 1 (a) bəndi.

(c) Tənzimedici nəzarət:

- Azərbaycan - Avstriya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Belçika Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Danimarka Sazişinin 14-cü Maddəsi;
- Azərbaycan - Estoniya Sazişinin 15-ci Maddəsi;
- Azərbaycan - Almaniya Sazişinin 11 a Maddəsi;
- Azərbaycan - Yunanıstan Sazişinin 6-cı maddəsi;
- Azərbaycan - Fransa Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Finlandiya Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - İtaliya Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Lüksemburq Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Niderland Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - İsveç Sazişinin 14-cü Maddəsi;

d) Aviasiya yanacağına vergi qoyma:

- Azərbaycan - Avstriya Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Belçika Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Danimarka Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Estoniya Sazişinin 7-ci Maddəsi;
- Azərbaycan - Almaniya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Yunanıstan Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - Fransa Sazişinin 11-ci Maddəsi;
- Azərbaycan - Finlandiya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - İtaliya Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Lüksemburq Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Niderland Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - Polşa Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Rumıniya Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - İspaniya Sazişinin 5-ci Maddəsi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - İsveç Sazişinin 6-cı Maddəsi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 8-ci Maddəsi;

e) Avropa Birliyi hüdudlarında daşıma tarifləri:

- Azərbaycan - Avstriya Sazişinin 11-ci Maddəsi;
- Azərbaycan - Belçika Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - Bolqarıstan Sazişinin 9-cu Maddəsi;
- Azərbaycan - Çexiya Respublikası Sazişinin 12-ci Maddəsi;

- Azərbaycan - Danimarka Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Estoniya Sazişinin 13-cü Maddəsi;
- Azərbaycan - Almaniya Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Yunanıstan Sazişinin 12-ci Maddəsi;
- Azərbaycan - Fransa Sazişinin 17-ci Maddəsi;
- Azərbaycan - Finlandiya Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - İtaliya Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Lüksemburq Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Niderland Sazişinin 5-ci Maddəsi;
- Azərbaycan - Polşa Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Rumıniya Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - Slovakiya Respublikası Sazişinin 8-ci Maddəsi;
- Azərbaycan - İsveç Sazişinin 10-cu Maddəsi;
- Azərbaycan - Birləşmiş Krallıq Sazişinin 7-ci Maddəsi.

**ƏLAVƏ III**

**Bu Sazişin 2-ci maddəsində istinad edilən digər dövlətlərin**

**SİYAHISI**

a) İslandiya Respublikası (Avropa İqtisadi Zonası Sazişinə əsasən);
b) Lixtenşteyn Knyazlığı (Avropa İqtisadi Zonası Sazişinə əsasən);
c) Norveç Krallığı (Avropa İqtisadi Zonası Sazişinə əsasən);
d) İsveçrə Konfederasiyası (Avropa Birliyi və İsveçrə Konfederasiyası arasında Hava Nəqliyyatı Sazişinə əsasən)

| Azərbaycan Respublikası<br>hökuməti adından<br>*(imza)* | Avropa Birliyi<br>adından<br>*(imzalar)* |
|---|---|